

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

14 noyabr 2025-ci il
Cümə

1933-cü ildən çıxır
№ 44 (3756)


# Tələb vətəndaşa xidmətdir

**Prezident İlham Əliyev noyabrın 12-də rayon icra hakimiyyətlərinə yeni təyin olunan icra başçılarını qəbul edərək onlara qarşıdakı fəaliyyət istiqamətləri ilə bağlı mühüm tapşırıqlar verib.**



Dövlət başçısının görüşdə çıxışı həm ölkə rəhbərliyinin məmur korpusu qarşısında qoyduğu strateji yanaşmanın, həm də vətəndaşa xidmət fəlsəfəsinin növbəti ifadəsi oldu.

İcra başçılarının böyük məsuliyyət daşıdığını vurğulayan Prezident qeyd edib ki, göstərilən etimadı doğrultmaq üçün həm şəxsi davranışları, həm də idarəçilik yanaşmaları ilə nümunə olmalıdırlar. Onların sadə, təvazökar, xalqla ünsiyyətdə açıq olması vacibdir. Təkəbbür, özünü cəmiyyətdən üstün tutmaq, yaxud korrupsiya kimi hallar dövlətin nüfuzuna xələl gətirən əsas səbəblərdir və bu cür qanunsuzluqlara yol verən məmurların cəzasız qalması mümkün deyil.

## Bu siyasətin təməlində xalqa xidmət prinsipi dayanır

> *Xalqa xidmət etmək hər bir rəhbərin əsas iş prinsipidir*

Prezident icra başçılarının əsas missiyasını qətiyyətlə ifadə edərək bildirib ki: “İlk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq – hər bir rəhbərin əsas iş prinsipidir.”

Prezident İlham Əliyev çıxışında ölkənin bütün regionlarında aparılmış infrastruktur layihələrinin nəticələrinə diqqət çəkib. Elektrik enerjisi təminatı, yollar, içməli su və suvarma sistemi, məktəblər, xəstəxanalar, sosial obyektlər – bütün bu sahələrdə son illər böyük irəliləyiş əldə olunub: “Bizim bölgələrimizdə əsas infrastruktur layihələri demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib. Demək olar ki, əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Təbii ki, köhnəlmiş infrastrukturun təzələnməsi, təmiri məsələləri var. Ancaq bu problem artıq ciddi problem kimi mövcud deyil. Bizim bütün bölgələrimizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elektrik infrastrukturunun yaradılması güclü potensial yaratmışdır.

Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Deyə bilərəm, hələ ki, biz istənilən 100 faiz nəticəyə çatmışıq, ancaq bir çox bölgələrdə kənd yollarının təqribən 70-80 faizi təmirlidir və keyfiyyətlidir”.

Məşğulluq məsələsi də əsas prioritet kimi göstərilib. Dövlət başçısı qeyd edib ki, ölkədə işsizliyin azaldılması istiqamətində ciddi işlər görülüb, özünüməşğulluq proqramları genişləndirilib, sahibkarlara dəstək mexanizmləri yaradılıb. Lakin bölgələrdən böyük şəhərlərə axının qarşısını almaq üçün yerli səviyyədə daha fəal iqtisadi təşəbbüslər həyata keçirilməli, əmək bazarı genişləndirilməlidir.

Prezident ekologiya ilə bağlı məsələlərə xüsusi həssaslıqla yanaşaraq çay məcralarının dəyişdirilməsi, tikinti materiallarının qanunsuz istehsalı kimi fəaliyyətlərin ciddi şəkildə nəzarətə götürülməsini tapşırıb. Vurğulayıb ki, regionların ekoloji tarazlığının qorunması həm insanların sağlamlığı, həm də iqtisadi inkişaf üçün mühüm şərtdir.

Mərkəzi icra orqanlarında aparılmış kadr islahatlarına toxunan Prezident İlham Əliyev bildirib ki, artıq icra başçılarına qanunsuz göstərişlərin verilməsi dövrü arxada qalıb və belə cəhdlər olarsa, dərhal ən sərt tədbirlər görüləcək.

Prezident İlham Əliyevin yeni icra başçıları ilə görüşdə verdiyi əsas mesaj aydın idi. Məmur xalqa xidmət etməlidir, qanunun aliliyini qorumalıdır və dövlət siyasətinin mahiyyətini öz davranışı ilə təsdiqləməlidir. Bu idarəçilik modelinin təməlində məhz xalqa xidmət prinsipi dayanır.

# Prezident başsağlığı verib

## Qardaş Türkiyə xalqına mənəvi dəstək ifadə olunub

Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlətimizin başçısı Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə, həlak olmuş hərbçilərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib. Telefon danışığı zamanı Azərbaycanın və Türkiyənin aidiyyəti dövlət qurumlarının qəza ilə əlaqədar təmasda olduqları qeyd edilib.

# Ulu öndərə və şəhidlərə ehtiram

## Prezident və birinci xanım xiyabanları ziyarət ediblər

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər. Onlar həmçinin Zərifə xanım Əliyeva, Əziz Əliyev və Tamerlan Əliyevin xatirəsini yad ediblər. Daha sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəmanları ehtiramla anıblar.

Eyni gün dövlətimizin başçısı və birinci xanım Bakıda inşa edilmiş Zəfər abidəsini ziyarət edib, Zəfər muzeyinin açılışında iştirak ediblər.

# Üçtərəfli görüş keçirilib

## Liderlər əməkdaşlığın perspektivlərini müzakirə ediblər

Noyabrın 8-də Prezident İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş keçirilib.

Tərəflər ölkələr arasında siyasi, iqtisadi, hərbi və mədəni-humanitar əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıblar. Liderlər Azərbaycan - Türkiyə - Pakistan formatının perspektivlərini ətraflı müzakirə ediblər.

# Qardaşlıq nümayişi

## Dünyaya Azərbaycan-Türkiyə-Pakistan birliyinin mesajı verildi

8 Noyabr – Zəfər Günündə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş möhtəşəm hərbi parad Azərbaycan-Türkiyə-Pakistan qardaşlığının dünyaya güclü mesajı oldu. Paradda üç dövlətin himnlərinin səslənməsi, hərbi birliklərin çiyin-çiyinə addımlaması sarsılmaz dostluğun parlaq təzahürü idi.

Prezident İlham Əliyev çıxışında qardaş ölkələrin Vətən müharibəsi dövründə göstərdiyi siyasi və mənəvi dəstəyin əhəmiyyətini xüsusi vurğulayaraq bildirdi ki, Türkiyə və Pakistanın Azərbaycanın haqq işinə verdiyi dayaq xalqımıza əlavə güc verib, qələbəyə inamı daha da artırıb. Dövlət başçısı qeyd etdi ki, 2020-ci ildə keçirilən Zəfər paradında Prezident Ərdoğanla birlikdə dayanmaq necə qürurverici idisə, bu gün Pakistanın Baş nazirinin də Bakıda olması qardaşlığın daha bir nümunəsidir.

Türkiyə və Azərbaycan arasında əzəldən mövcud olan qardaşlıq münasibətləri regionda sülhün, təhlükəsizliyin və inkişafın əsas dayaqlarından biridir. 44 günlük müharibə zamanı Türkiyənin dəstəyi düşmən tərəfin planlarını puça çıxardı. Prezident Ərdoğanın “Azərbaycan tək deyil!” sözləri bütün dünyaya ciddi mesaj oldu. 2021-ci il Şuşa Bəyannaməsi isə iki ölkəni strateji müttəfiqlik səviyyəsinə yüksəldərək birlik və həmrəyliyi daha da möhkəmləndirdi.

Prezident Rəcəb Tayyib Ərdoğan paraddakı çıxışında Qarabağ Zəfərinin təkcə tarixi ədaləti bərpa etmədiyini, həm də Cənubi Qafqazda yeni bir mərhələnin başlanğıcını qoyduğunu bildirdi. Onun sözlərinə görə, bu qələbə bölgədə davamlı sülhün qurulması üçün mühüm şans yaradıb və Türkiyə hər zaman Azərbaycanın yanında olmağa davam edəcək.

Pakistan da İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana ən yüksək səviyyədə siyasi dəstək verən ölkələrdən olub. 2020-ci ildə Pakistan Milli Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyən qətnamə qəbul edib. Pakistan uzun illərdir Ermənistanla diplomatik münasibət qurmayaraq Azərbaycanın haqlı mövqeyinə sadiqliyini nümayiş etdirir.

Baş nazir Məhəmməd Şahbaz Şərif də paradda üç qardaş ölkənin birlik və həmrəyliyinin sarsılmaz olduğunu vurğuladı. Onun sözlərinə görə, Azərbaycan, Türkiyə və Pakistan ordularının Azadlıq meydanından birlikdə keçidi bu dostluğun gücünü bütün dünyaya göstərdi.

Bakıda keçirilən qardaşlıq paradı Azərbaycan - Türkiyə - Pakistan birliyinin siyasi, mənəvi və hərbi baxımdan möhkəm dayaqlara söykəndiyini bir daha təsdiqlədi. Bu həmrəylik bir daha sübut etdi ki, üç qardaş ölkə hər zaman bir-birinin yanındadır və bu birlik regionun gələcəyini müəyyən edən əsas faktorlardan biri olaraq qalacaq.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyevin noyabrın 12-də imzaladığı sərəncamlarla Ceyhun Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlov Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayev Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzov Göygöl Rayon İcra Hakimiyyətinin başçısı və Elşən Həsənli Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunublar.*

*Prezident İlham Əliyev noyabrın 7-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi və Silahlı Qüvvələrin hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncamlar imzalayıb.*


Konstitusiya hüquqi dövlətin dayağıdır..2
Qalib xalqın Zəfər Paradı ......................2
Döyüşçü ömrü, şəhid ucalığı.................3
50 milyonluq qızılın sirri........................4

# Respublika Xəbərləri

### DİN-dən onlayn tələ xəbərdarlığı

Daxili İşlər Nazirliyi vətəndaşlara xəbərdarlıq edib ki, "bonus" və ya "mükafat qazandınız" kimi mesajlar saxtadır. Belə linklər bank kartı məlumatlarını ələ keçirmək məqsədi daşıyır. Nazirlik bildirir ki, heç bir rəsmi qurum vətəndaşdan kartın PIN və CVV kodlarını istəmir.

### Polislərdən şəhidə ehtiram

Astarada polis əməkdaşları Zəfər Günündə şəhid Orxan Babayevin ailəsini və məzarını ziyarət ediblər. Görüşdə şəhidlərin əziz xatirəsinin daim yaşayacağı, gənclər üçün vətənpərvərlik nümunəsi olduğu vurğulanıb. Ailə göstərilən diqqətə görə minnətdarlıq edib.

### Laçında yeni evlər tikiləcək

Laçının Qorçu qəsəbəsində 319 yararsız tikilinin söküntüsünə başlanılıb. Ərazidə yenidən 250 ev, məktəb, bağça, tibb məntəqəsi, idman və mədəniyyət mərkəzlərinin tikintisi nəzərdə tutulur. Layihə Böyük Qayıdış proqramı daxilində həyata keçirilir.

### Neçə nəfər işlə təmin olunub?

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, bu ilin on ayında 491 min 800 nəfər aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 158 mini işlə təmin edilib, 16 mini özünüməşğulluq proqramına cəlb olunub, minlərlə şəxs peşə kurslarına qatılıb.

### Cəbrayılda Zəfər yürüşü

Cocuq Mərcanlı kəndinin orta təhsil məktəbindən Cəbrayıl şəhərinin kəndlərinə qədər şagirdlərin iştirakı ilə Zəfər yürüşü keçirilib. Tədbirdə şəhidlərin qəhrəmanlığı yad edilib, vətənpərvərlik amili vurğulanıb. Gənc nəslin qələbə ruhu ilə böyüməsinin ölkənin gələcəyi üçün önəmi qeyd olunub.

### Sahibkarlar Qarabağda iş qururlar

Qarabağda biznes qurmaq istəyən 3500-dən çox sahibkar Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə müraciət edib. Onlara biznes plan hazırlanması və təlimlərdə iştirak üçün dəstək veriləcək. Layihə şəhid ailələrinin, qadınların və gənclərin sahibkarlığa cəlb olunmasını hədəfləyir.

### Valyuta ehtiyatlarımız artır

Son illər valyuta ehtiyatlarımız mütəmadi olaraq artır. 2025-ci il oktyabrın 1-nə strateji valyuta ehtiyatlarımız 81,5 milyard ABŞ dollarına çatıb. Bunun da 70 milyard dollarından çoxunu Dövlət Neft Fondunda toplanmış vəsait təşkil edir. Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları isə 11 milyard 368 milyon ABŞ dolları təşkil edir.

### Şuşada məşğulluq dəstəyi

Şuşaya köçürülmüş sakinlərdən 600-ə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb edilib. Onlardan 587 nəfəri işlə təmin olunub, 26 nəfər özünüməşğulluq proqramı çərçivəsində fərdi təsərrüfat yaradıb. Daha bir qrup üçün yeni dəstək tədbirləri planlaşdırılır.

### Sosial dəstək paketi genişdir

Vətən müharibəsindən sonra şəhid ailələri və qaziləri əhatə edən geniş sosial dəstək paketi icra olunur. Postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranlarına yönələn aylıq sosial ödənişlər orta hesabla 2 dəfədən çox artırılıb. Belə şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib.

### Yeni yaşayış məntəqələri salınacaq

Azad edilmiş ərazilərdə 20 yaşayış məntəqəsinin layihələndirilməsi yekun mərhələdədir. Yeni evlər, məktəblər, səhiyyə və mədəniyyət obyektləri inşa ediləcək. Qeyd edək ki, artıq 60 minə yaxın şəxs işğaldan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır.

### Gənclərə biznes imkanı yaradılıb

Bu günədək 19 minə yaxın gənc özünüməşğulluq proqramı ilə kiçik ailə təsərrüfatı yaradıb. On minlərlə gənc münasib işlə təmin olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, "Biznesini yarat" və "İrəliləyiş" layihələri gənclərin karyera və təcrübə imkanlarını artırmağa yönəlib.

# Konstitusiya hüquqi dövlətin dayağıdır

## Daxili işlər orqanları konstitutsion dəyərlərin keşiyindədir

**Konstitusiya hər bir dövlətin siyasi, hüquqi və mənəvi bünövrəsidir. Bu ali sənəd xalqın iradəsini ifadə edərək dövlətin quruluşunu, idarəetmə prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını müəyyənləşdirir.**

1995-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hazırlanaraq ümumxalq səsverməsinə təqdim edilmiş Azərbaycan Respublikasının Konstitusiyası da müstəqil dövlətçiliyimizin bünövrəsini təşkil edir və xalqımızın suveren iradəsinin ifadəsidir.

O zaman qəbul olunmuş Konstitusiya Azərbaycan xalqının dövlətçilik iradəsini təsdiqləyib, suverenliyimizi beynəlxalq hüquq normaları çərçivəsində möhkəmləndirsə də, bu suverenliyin tam reallaşması yalnız 2023-cü ildə keçirilmiş lokal antiterror tədbirləri nəticəsində mümkün oldu.

Prezident İlham Əliyevin Xankəndidə üçrəngli bayrağımızı ucaltması ilə Azərbaycan Konstitusiyasının qüvvəsi bütün ölkə ərazisinə şamil edildi, dövlət suverenliyi faktiki olaraq bərpa olundu.

Yeri gəlmişkən, antiterror tədbirlərində daxili işlər orqanlarının rolunu da vurğulamaq yerinə düşər. Çünki bu, həm də əsas qanunumuzda təsbit edilmiş suverenlik uğrunda mübarizə idi. Bu prosesdə daxili işlər orqanları mühüm missiya yerinə yetirdi.

Daxili İşlər Nazirliyinin əməkdaşları antiterror tədbirlərində iştirak etməklə qanunun aliliyinə, azad edilən torpaqlarda ictimai asayişin və dövlətin idarəetmə sisteminin bərpasına töhfə verdilər. Əsarətdən qurtulmuş şəhər və rayonlarımızda polis əməkdaşlarının fədakarlığı sayəsində artıq ictimai asayiş və təhlükəsizlik tam təmin olunub.

Başqa sözlə desək, Konstitusiyanın prinsipləri hazırda bütün ölkə ərazisində tətbiq edilir. Suverenliyin bariz göstəricisi qanunları ölkənin hər yerində qoruyan, qanunun aliliyini təmin edən daxili işlər orqanlarıdır, polisdir. Bu baxımdan azad edilmiş torpaqlarda polis xidmətinin bərpa edilməsi yalnız təhlükəsizliyin deyil, həm də konstitutsion idarəetmənin tam bərpasıdır.

Bu fakt həm ərazi bütövlüyümüzün, həm də hüquqi dövlət quruluşumuzun praktiki təntənəsini əks etdirir.

Azərbaycan polisi bu gün ölkənin bütün ərazisində dövlətçiliyimizin, hüquq qaydasının və insan azadlıqlarının keşiyində dayanır. Konstitusiyada təsbit edilən prinsiplərin həyata keçməsi üçün polislərin fəaliyyəti sabitliyin və milli birliyin təminatına çevrilib. Bu, insan hüquq və azadlıqları prizmasından baxdıqda da, belədir.






Konstitusiyamızla ali dəyər kimi təsbit olunan insan hüquq və azadlıqları toxunulmaz, pozulmaz və ayrılmaz elan edilib. Hüquqi dövlətimizin əsas məqsədi məhz bu dəyərlərin qorunmasını təmin etməkdir.

Polis də vətəndaşların təhlükəsizliyini qorumaqla, hüquqların pozulmasının qarşısını almaqla və qanunun aliliyini təmin etməklə bu ali məqsədin reallaşmasının mühüm təminatçısıdır.

# Qalib xalqın Zəfər Paradı

## DİN Daxili Qoşunlarının hərbçiləri paradda iştirak edirdi

**Tariximizin ən şanlı səhifələrdən biri olan Vətən Müharibəsindəki Zəfərin 5 illiyi münasibətilə keçirilən hərbi parad ölkəmizin gücünü, milli ruhunu və birliyini bir daha dünyaya nümayiş etdirdi.**

Azadlıq meydanında təşkil olunan bu möhtəşəm yürüşdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 5000 nəfər şəxsi heyəti, Türkiyə Silahlı Qüvvələrinin 240, Pakistan İslam Respublikasının 120 hərbçisi bir sırada addımlayaraq dostluq və birliyimizin təcəssümünə çevrildilər. Paradda, həmçinin 50 Azərbaycan və 5 Türkiyə aviasiya vasitəsi, 39 ədəd xüsusi təyinatlı avtomobil və silah sistemi, 53 hava hücumundan müdafiə vasitəsi, 63 raket-artilleriya qurğusu, eləcə də 12 hərbi gəmi nümayiş olundu.

Paradın ən qürurverici məqamlarından biri Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Təyinatlı bölmələrinin iştirakı idi. Vətən uğrunda döyüşlərdə göstərdikləri igidliklə tanınan bu qəhrəmanların Zəfər yürüşündə peşəkarlığını, nizam-intizamını və dövlətə sədaqətini gördük, şahidi olduq. Daxili Qoşunların parad heyətinə "Vətənə xidmətə görə" ordenli general-mayor Tofiq Hüseynov rəhbərlik edirdi. Onun başçılığı altında addımlayan hərbi qulluqçular Azərbaycan dövlətçiliyinin dayanıqlığını, xalqın təhlükəsizliyinin qorunmasında Daxili Qoşunların mühüm rolunu yada saldılar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan qələbəyə Daxili Qoşunların hərbi qulluqçuları misilsiz töhfə veriblər. Bu gün isə ərazi bütövlüyü və suverenliyi tam təmin edilmiş Vətənimizin keşiyində dayanmaqla xidmətlərini davam etdirirlər. Hərbçilərimizin paradda mətin addımları, yüksək döyüş ruhu və peşəkar hazırlığı bundan sonra da sabitliyin və təhlükəsizliyin etibarlı qorunacağına güclü əminlik yaradır.





# Ekoloji reyd keçirilib

## Polis əməkdaşları tərəfindən sürücülər maarifləndirilib

Nərimanov və Sabunçu rayonlarında "Təmiz hava" aylığı çərçivəsində tədbir keçirilib.

Tədbirdə Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin, Nərimanov və Sabunçu rayon DYP Şöbələrinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları iştirak ediblər. Nəqliyyat vasitələrindən ixrac olunan zəhərli qazların miqdarı ölçülüb, qaydaları kobud şəkildə pozan şəxslər barəsində inzibati qaydada tədbirlər görülüb.

Bakı şəhər DYP İdarəsinin əməkdaşları tərəfindən sürücülərə qanunvericiliyin tələbləri izah olunub.

Sürücülərin və avtomobil sahiblərinin diqqətinə çatdırılıb ki, ətraf mühitin qorunması üçün nəqliyyat vasitəsindən ixrac olunan zərərli qazların miqdarının normalar çərçivəsində olmasına nəzarət etsinlər.

# Döyüşçü ömrü, şəhid ucalığı

## Adları əbədi, uyuduqları torpaq and yeridir

**Vətən müharibəsində haqqa qovuşan, qanı Vətən olan şəhid hərbi qulluqçularımızdan biri də çavuş Vəliyev Ramazan Hilal oğludur. O, 1995-ci il iyunun 18-də Aşqabadda doğulub. Vəliyevlər ailəsi əslən Masallı rayonunun Şərəfə kəndindəndir. Qonşu ölkədə bir neçə il yaşadıqdan sonra Vətənə dönüblər.**

Ramazan Masallı rayonunun Şərəfə kəndində yerləşən şəhid Qəhrəman İsmayılov adına tam orta məktəbdə 9 il təhsil alıb. 2012-2015-ci illərdə 6 saylı Bakı Peşə Liseyində təhsilini davam etdirərək, "IV dərəcəli matros" ixtisasına yiyələnib.

2015-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mühafizə alayında hərbi xidmət keçib. 2017-ci ilin yanvarında müddətli həqiqi hərbi xidməti başa çatıb.

Hərbi xidmətdən sonra əmisi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmasını məsləhət görüb. O, Daxili Qoşunlarda hərbi xidmət keçmək üçün komandanlığa müraciət edib. Beləliklə, 2019-cu ilin sentyabr ayında Daxili Qoşunların sıralarında hərbi xidmətə başlayıb. "N" saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı vəzifəsinə təyin edilib. Cəmi 1 il 14 gün müddətində ona dinc dövrdə xidmət keçmək qismət olub. 2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsinin başlanması ilə hərbi qulluqçu kimi Ramazan da həyatının çətin və şərəfli sınaq mərhələsinə qədəm qoyub.


*Ramazan Vəliyev*

Vətən müharibəsi iştirakçısı baş leytenant Vüsal Sadıxov: "Ramazan xidməti-döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib. Müharibə başlayanda dəstənin şəxsi heyəti digər hərbi hissəyə göndərilib. Hərbi hissədə yerləşdikdən sonra sentyabrın 28-dən etibarən hərbi qulluqçularımız Tərtər və Ağdam rayonlarının ərazilərində komendant postlarında polis əməkdaşları ilə birlikdə xidmət aparıblar. Həmçinin döyüş əməliyyatlarına lazımi hazırlıq görülüb.

Oktyabrın 15-də ön cəbhənin Füzuli rayonu istiqamətinə gələrək, buradan döyüş tapşırıqlarının icrasına başlayıblar. Həmin vaxt ayrı-ayrı bölgələrdə şiddətli döyüşlər davam edirdi. Ramazan silahdaşları ilə birgə Füzuli, Cəbrayıl, Xocavənd, Xocalı rayonlarının və Şuşa şəhərinin ərazilərində döyüş yolu keçib".

Gizir Novruz Hüseynov, Vətən müharibəsi iştirakçıları çavuş Xandadaş Sultanov, əsgərlər Rəsul Aslanov və Anar Əsgərov da Ramazanın əzmkar hərbçi və fədakar döyüşçü olduğunu vurğuladılar. Qeyd olundu ki, Ramazan Hadrut qəsəbəsi və Topxana meşəsində ataşə məruz qalarkən yüngül dərəcəli bədən xəsarətləri alıb. Ön cəbhənin bütün əzab-əziyyətlərinə dözüb. Hərbi zəfərimizlə başa çatan döyüşlər dayandırıldıqdan bir müddət sonra – noyabrın 29-da Şuşada düşməndən qalmış silah-sursatın axtarılması, təhlükəsiz yerə daşınması və mühafizə altına götürülməsi üzrə xüsusi tapşırığı yerinə yetirərkən o, işğalçılara məxsus qumbaranın partlaması nəticəsində ağır yaralanaraq şəhid olub. 2020-ci il dekabrın 1-də hərbi qulluqçumuzun nəşi ailəsinin yaşadığı ünvana gətirilərək Şərəfə kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə çavuş R.Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

*Yalçın Abbasov*

# Zəfər tarixinə elmi baxış

## Hərb elminə yeniliklər bəxş etmişik

Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Hərbi İnstitutunda 44 günlük Vətən müharibəsində qazanılmış Şanlı Qələbənin 5-ci ildönümünə həsr olunmuş "Zəfər tarixi" adlı elmi-nəzəri konfrans keçirilib.

Konfransda dövlət və ali təhsil müəssisələrinin nümayəndələri – Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi, Azərbaycan Respublikası Milli Müdafiə Universitetinin, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Gömrük Komitəsinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Dövlət Dəniz akademiyalarının nümayəndələri, kursant və tələbələri, Vətən müharibəsinin qəhrəmanları və iştirakçıları, həmçinin şəhid ailələrinin üzvləri qonaq qismində iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, videoçarx nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan Hərbi İnstitutun rektoru, general-mayor Elçin Məmmədov tədbirdə Zəfər Gününün tarixi əhəmiyyətindən danışıb, gənc nəslin



dövlətçilik ideyalarına sadiq və vətənpərvər ruhda tərbiyə almasının önəmini diqqətə çatdırıb.

Məruzələrdə Zəfərimizin təməlində ulu öndərin uzaqgörən siyasətinin və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətinin, ordumuzun və xalqımızın gücünün durduğu xüsusi vurğulanıb. Çıxışlarda Vətən müharibəsinin hərbi-siyasi nəticələri, post-müharibə dövründə təhlükəsizlik sisteminin təkmilləşdirilməsi və milli birliyin möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

# Mühafizə polisi etibarlı keşikçidir

## Peşəkarlar iş başında olanda təhlükə uzaq olur

Ölkəmizdə cinayət statistikası azalsa, kriminal vəziyyət tam nəzarət altında saxlanılsa belə, hadisə ehtimalı həmişə qalır və riskləri görməzlikdən gəlmək düzgün olmaz. Ən müasir kameralar belə çox vaxt hadisənin qarşısını almır, yalnız sonradan sübut rolunu oynayır. Buna görə mənzil və obyekt sahibləri üçün ən etibarlı seçim Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin xidməti sayılır. Baş İdarənin Mühafizə təyinatlı texniki sistemi yüksək həssaslığa malikdir, quraşdırılan siqnalizasiya evdə və ya obyektdə baş verən ən kiçik dəyişiklikləri belə dərhal qeydə alır. Həyəcan siqnalı aktivləşən kimi məlumat növbətçi hissəyə ötürülür və bir neçə dəqiqə ərzində polis hadisə yerinə çatır. Bu mexanizm təkcə oğurluq cəhdlərinə qarşı deyil, həm də yanğın, eləcə də digər texnogen hallarda vətəndaşın əmlakını və həyatını qorumağa yönəlib.

Bu günlərdə Binəqədi rayonunda baş verən hadisə mühafizə sisteminin əhəmiyyətini bir daha göstərdi. Biləcəri qəsəbəsində yaşayan F.Ələsgərova məxsus evin siqnalizasiya sisteminin səhər saatlarında işə düşməsindən dərhal sonra Binəqədi Rayon Mühafizə İdarəsinin "tutucu qrup"u hərəkətə keçib. Polis serjantları Emin Quliyev və Orxan Sultanov hadisə yerinə çataraq iki mərtəbəli fərdi evin giriş qapısına müdaxilə edən şəxsi yaxalayıb və təhlükəsizliyi təmin ediblər.




Saxlanılan şəxs Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsinə təhvil verilib. Araşdırma zamanı onun əvvəllər oğurluq maddəsi ilə məhkum olunmuş, axtarışda olan 1991-ci il təvəllüdlü Ə.Əliyev olduğu müəyyən edilib. Hadisə nəticəsində vətəndaşın əmlakına zərər dəyməyib.

Bu fakt mühafizə polisi tərəfindən qorunan mənzillərdə cinayətlərin baş tutmadığını bir daha təsdiqləyir. Belə hallarda, əvvəllər də qeyd etdiyimiz kimi, oğurluğa cəhd edənlərin yeganə "uğuru" cinayət başında yaxalanmaq olur.

Məlumat üçün qeyd edək ki, "tutucu qrup"un polis nəfəri polis serjantı Emin Quliyev yalnız əmlakın deyil, insan həyatının da qorunmasında nümunə göstərib. O və həmkarı Nurlan Əlizadə oktyabrın 20-də xidmətdə olan zaman Bakı Beynəlxalq Avtovağzal Kompleksi yaxınlığında bir şəxsin körpü üzərinə çıxaraq intihara cəhd etdiyini görüblər. Polis əməkdaşları vəziyyəti dərhal qiymətləndirib, gənci sakitləşdirib, faciənin qarşısını alıblar. Bu hadisə də mühafizə əməkdaşlarının xidmət borcuna necə məsuliyyətlə yanaşdığının bariz nümunəsidir.

Bu faktlar bir daha göstərir ki, hər bir çağırışa vaxtında reaksiya verilməsi, vətəndaşların əmlakının toxunulmazlığının təmin olunması mühafizə xidmətini ölkənin ən etibarlı keşikçisi səviyyəsinə qaldırıb. Mühafizə polisi təkcə cinayətlərə reaksiya verən deyil, həm də onların qarşısını alan, təhlükəni öncədən hiss edən bir qüvvədir. Buna görə də öz mülkiyyətini qorumaq istəyən hər kəs üçün ən doğru seçim elə Baş Mühafizə İdarəsinin xidmətidir.

# Onlar sağlam həyatı seçirlər

## Maarifləndirmə də mübarizədir

Nərimanov Rayon Polis İdarəsinin təşəbbüsü ilə 45 nömrəli tam orta məktəbdə "Narkomaniyaya yox deyək, gələcəyimizi qoruyaq" mövzusunda maarif-



ləndirici tədbir keçirilib.

Rayon Polis İdarəsinin rəisi polis polkovniki Arzu Heydərov narkomaniyanın dünyanı məhvə sürükləyən və qarşısı alınmaz bəlaya çevrildiyini deyib.

O, bildirib ki, bu gün ölkəmizdə gənclərin layiqli vətəndaş kimi formalaşması, onların həyatın bütün sahələrində uğur əldə etmələri, zərərli vərdişlərdən uzaq durmaları üçün dövlətimiz bütün imkanlarını səfərbər edib.

Paytaxtımızda olduğu kimi, respublikamızın hər bölgəsində idman olimpiya kompleksləri, idman qurğuları tikilib, qurulub və gənclərin ixtiyarına verilib.

Qeyd olunub ki, "ailəvi qırğın" silahının qarşısını almaq üçün hüquq mühafizə orqanlarının qətiyyətli mübarizə tədbirləri, həmçinin belə maarifləndirici görüşlər gələcəyimiz olan uşaqları, gəncləri bir sözlə hər kəsi qorumağa yönəlib. Belə ki, ötən müddət ərzində idarənin əməkdaşları tərəfindən keçirilən uğurlu əməliyyat tədbirləri ilə narkotiklərlə bağlı 222 fakt qeydə alınıb, qanunsuz dövriyyədən 80 kiloqram 642 qram narkotik vasitə çıxarılıb.

Fiziki baxımdan sağlam, zərərli vərdişlərdən uzaq olan gənclərin sayəsində Vətən müharibəsində şanlı Zəfər qazandığımızı, antiterror tədbirlərindən sonra isə suverenliyimizin bərpa olunduğunu vurğulayan tədbir iştirakçıları "ağ ölüm"lə mübarizədə hər birimizin üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıblar.

# "Açıq qapı"dan keçdilər

## Şagirdlər Polis Akademiyasının qonağı oldular

Sağlam düşüncəli və yüksək intellektli gənclərin ixtisas seçimində Polis Akademiyasına üstünlük verməsinin təmin edilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

Bu dəfə Polis Akademiyasının "Açıq qapı"sından Bakı şəhərinin Sabunçu rayonunda yerləşən İlqar Əliyev adına 96 nömrəli tam orta məktəbin şagirdləri keçiblər.





Şagirdlər Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, idman meydançaları və zalları, kriminalistik təlim şəhərciyi, mühazirə zalları, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, kursant yeməkxanası, qapalı atıcılıq tiri və idman şəhərciyi ilə tanış olublar.

Qonaqlara Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və Akademiyada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib, həmçinin rəsmi saytda yerləşdirilmiş "Virtual Akademiya" platformasından istifadə edərək tədris müəssisəsi ilə onlayn tanış olmaq imkanı da onların nəzərlərinə çatdırılıb.

# Əməliyyat tədbirləri keçirilib

## Kiberpolis tərəfindən 17 nəfər saxlanıldı

DİN Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Haqsız Rəqabət və Reklam Qanunvericiliyinə Nəzarət Şöbəsinin əməkdaşları ilə birgə ölkə ərazisində qadağan olunan onlayn qumar oyunlarının "Instagram", "TikTok" və digər sosial şəbəkə platformalarında yüksək izləyici sayına malik hesablarda reklam olunmasına qarşı əməliyyat-texniki tədbirlər keçirib. Araşdırmalar zamanı influenserlər, yəni sosial mediada aktiv olan bir sıra şəxslər tərəfindən qanunsuz qumar və mərc oyunlarının reklamının həyata keçirildiyi, həmin hesabların təbliğinə yönələn kontentlərin yayımlandığı aşkarlanıb. Bununla əlaqədar qanunsuz qumar və mərc oyunlarını öz səhifələrində reklam edən 17 nəfər kiberpolis tərəfindən müəyyən olunaraq Baş İdarəyə gətirilib. Həmin şəxslər barəsində qanunauyğun tədbir görülüb. Qeyd edilən əməllərə yol verən digər şəxslərin də aşkar olunması istiqamətində araşdırmalar davam etdirilir.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

*(Əvvəli ötən sayımızda)*

Oktyabrın 21-də gecə ərzində cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir. Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək geri çəkilməyə məcbur edilmişdir. 5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilmiş, çoxlu sayda silah və sursat qənimət götürülmüşdür. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborunun şəxsi heyəti ilə birlikdə məhv edilmişdir. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar var. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var. Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun ərazisini artilleriya qurğularından atəşə tutmuşdur. Cəbrayıl istiqamətində gedən döyüş zamanı Azərbaycan Ordusu tərəfindən görülən tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 556-cı alayının taboru məhv edilmişdir.

Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan Çərəkən kəndinin yeni görüntülərini yayımlamışdır. Gün ərzində Ermənistan silahlı qüvvələrinə məxsus 6 taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilmişdir. Onlardan 2-si cəbhənin Füzuli istiqamətində, 1-i isə Tərtər istiqamətində vurulmuşdur. Ermənistan tərəfi Azərbaycan Ordusunun Ağdərə şəhərini bombardman etdiyini açıqlamışdır.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri, Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qıraq Müşlan, Üdgün, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Turabad, Baharlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

Oktyabrın 22-də gecə ərzində cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir. Ermənistan Silahlı Qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki vermişdir. Alayın 3-cü taborunun komandiri Robert Hambartsumyan itkin düşmüş, taborun qərargah rəisi isə məhv edilmişdir. 543-cü alayın müdafiə sahəsinə vurulan atəş zərəri nəticəsində şəxsi heyət arasında xeyli itki var. Alay komandiri yaralanmış, onun müavini, tabor komandiri Araik Hovakimyan, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edilmişdir.

*(Ardı gələn sayımızda)*

# Faciələri unutduran Qələbə

## Veteranlarımız gənc əməkdaşlarımıza örnəkdir

Gəncə Şəhər Baş Polis İdarəsinin veteranları gənc əməkdaşlarla birlikdə 8 Noyabr – Zəfər Günü münasibətilə Gəncə şəhərində yerləşən Gəncə Memorial Kompleksini ziyarət ediblər.

Əvvəlcə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbçilərimizin və mülki vətəndaşların xatirəsinə ucaldılmış abidənin önünə tər güllər düzülüb, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Torpaqlarımızın işğaldan azad edilməsi zamanı ordumuzun nümayiş etdirdiyi fədakarlığın, nailiyyətlərin dünya hərb tarixinə qızıl hərflərlə yazıldığını deyən Baş İdarənin Veteranlar Şurasının sədri, təqaüddə olan polis polkovnik-leytenantı Məhəmməd Hümbətov bildirib ki, tarixi zəfərin qazanılmasında Azərbaycan Polisinin də böyük rolu var. Belə ki, arxa cəbhədə sabitliyin etibarlı qorunması, əmin-amanlığın bərqərar edilməsi ön cəbhədə uğurları qaçılmaz edib.

Digər çıxış edənlər düşmənin Gəncədə, Bərdədə və ön cəbhədən uzaq digər şəhər və rayonlarımızdakı təxribatlarına, insanlıq əleyhinə törətdikləri cinayətlərə diqqət çəkiblər.

Sonda ziyarətçilər kompleksin muzeyində sərgilənən eksponatlarla tanış olublar.

# 50 milyonluq qızılın sirri

## Ötən əsrin sualları cavabsız qalır

1983-cü ilin 26 noyabrı London şəhərinin Hitrou hava limanının yaxınlığında yerləşən "Brink's-Mat" təhlükəsizlik anbarında çalışan mühafizəçi üçün adi bir iş günü kimi başlamışdı. Lakin saat 06:40 radələrində anbara daxil olan altı nəfər silahlı şəxsin hücumu ilə hər şey dəyişdi. Soyğunçular anbardakı qızıl və qiymətli əşyaların yerini dəqiq bilirdilər. Onlar mühafizəçini təhdid edərək onu seyfə yaxınlaşdırdılar və təhlükəsizlik kodunu daxil etdirdilər. London polisi sonradan bəyan etdi ki, soyğunçuların bu qədər dəqiq və sakit hərəkət etməsi daxildən məlumat aldıqlarını sübut edir.

### Qanunsuz plan necə hazırlanmışdı?

Londondakı polis araşdırmalarına əsasən, bu soyğun uzun müddət əvvəl planlaşdırılmışdı. Soyğunçular "Brink's-Mat" anbarında çalışan bir şəxslə əlaqə qurmuş, onun vasitəsilə sistem, giriş kodları və içəridəki hərəkət qaydaları barədə tam məlumat toplamışdılar. Soyğun zamanı 3 ton qızıl külçə, brilyant və nağd pul oğurlanmışdı. Bu miqyasda soyğun Böyük Britaniya tarixində görülməmişdi. Polis cinayətkarların planlı şəkildə, minimum səslə və maksimum sürətlə hərəkət etdiyini, hadisənin cəmi 20 dəqiqə çəkdiyini bildirmişdi.




### Polis araşdırması: izlər və çətinliklər

Hadisədən dərhal sonra London polisi xüsusi qrup yaratdı. Soyğun yerində barmaq izləri, ayaq izləri və anbar işçilərinin ifadələri əsasında axtarış başlanıldı. Lakin cinayətkarlar peşəkarcasına hərəkət etmişdi. Qızıl külçələr dərhal əridilərək digər ölkələrə daşınmış, izlər bilərəkdən yox edilmişdi. Polis bir neçə nəfəri şübhəli şəxs kimi saxladı, lakin əsas qızılın harada olduğu, kimə satıldığı və pulların necə yuyulduğu uzun illər açılmadı. O dövr də bu əməliyyat polis üçün ağlasığmaz dərəcədə mürəkkəb iş sayılırdı.

### Qızıl necə yoxa çıxdı?

Polisin araşdırmalarına görə soyğunçular qızılı Londonun cinayətkar aləminə bağlı şəxslərlə birlikdə "yuyaraq" qanuni bazarlara çıxarmışdılar. Qızıl əridilərək yeni formada külçələr halına salınmış və müxtəlif ölkələrə daşınmışdı. Böyük Britaniya polisi bu əməliyyatın təkcə ölkə daxilində deyil, beynəlxalq cinayətkar şəbəkələrlə əlaqəli olduğunu bildirmişdi. Bir neçə maliyyə vasitəçisi, hüquqşünas və hətta zərgərlərin bu işdə əli olduğu şübhələri yaranmışdı. Lakin əldəki sübutların yetərsizliyi səbəbilə bu şəxslərin çoxu məsuliyyətdən yayınmışdı.

### Nəticələr və uzun illər davam edən istintaq

Hadisədən sonra Britaniya polisi təhlükəsizlik sistemlərinin gücləndirilməsinə dair təkliflər verdi. Brink's-Mat soyğunu ölkədəki təhlükəsizlik xidmətləri üçün bir siqnal oldu. İstintaq illərlə davam etdi. Hər dəfə yeni bir ipucu çıxanda polis bu izi təqib edir, lakin nəticəyə varmaq çətin olurdu. 1990-cı illərdə bu işlə bağlı yenidən istintaq açıldı və bir neçə nəfər həbs olundu. Lakin 50 milyon funt sterlinq məbləğində qızılın tam hara getdiyi, kimlər tərəfindən istifadəyə verildiyi bu gün də sirr olaraq qalır.

### Bu günə qədər davam edən sirr və polis üçün açıq suallar

Polis hələ də "Brink's-Mat" soyğununu cinayət işi kimi icraatında saxlayır. Soyğun zamanı istifadə olunan metodlar, daxildən verilən məlumatlar və mütəşəkkil cinayətkar şəbəkələrin iştirakı bu işi kriminal tarixdə ön sıralara çıxarır. 1983-cü ildə baş vermiş bu hadisə, təkcə bir soyğun deyil, həm də hüquq-mühafizə orqanları üçün bir dərs idi. Bu günə qədər qızılın tam həcmi bərpa edilməyib, soyğunçuların bir neçəsi hələ də tapılmayıb. Bu cinayət bir çox sirrini hələ də qoruyub da, polis orqanlarının illərlə apardığı peşəkar araşdırmalar sayəsində hadisənin əsas detalları üzə çıxarılıb.

*Aytən Tahirova*
*polis kapitanı*

# Gümüş medal qazandı

## Polis kapitanı daha bir uğura imza atdı

Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli (110 kq) Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarını iki medalla başa vurub. Polis idmançımız təkanla qaldırmada 211 kiloqram çəkinin öhdəsindən gəlməklə gümüş medal əldə edib. Beləliklə, D.Dadaşbəyli iki hərəkətin cəmində 391 kq qaldırmaqla gümüş mükafata sahib olub. O, daha əvvəl birdən qaldırmada 180 kiloqram çəkinin öhdəsindən gəlmişdi.



Qeyd edək ki, İslamiada noyabrın 21-də başa çatacaq.

# Dünya üçüncüsü oldu

## Həmkarlarımız ölkəmizi uğurla təmsil edirlər

Bu günlərdə Taylandın Bankok şəhərində ciu-citsu üzrə növbəti dünya çempionatı keçirilib. Altmış beş ölkəni təmsil edən idmançıların mübarizə apardığı çempionatda Azərbaycan atletləri də yarışıblar. Yığma komandamızın heyətində yer alan Əməkdar idman ustası, DİN İdman Cəmiyyətinin baş inspektoru, polis mayoru Elşən İbişov 94 kiloqram çəki dərəcəsində gücünü sınayıb. O, İtalya, İraq, və Fransa idmançılarından üstün olub. Həmkarımız finala çıxışda Almaniya idmançısı ilə üzbəüz gəlib və yarışın bürünc medalını qazanıb.




Qeyd edək ki, E.İbişov cui-citsu ilə yanaşı, cüdo və sambo ilə də məşğul olur. Həm respublika, həm də dünya və Avropa çempionatlarında ölkəmizi uğurla təmsil edir.

# Kursantlarımız qalib oldu

## Əzmkarlıq nümayiş etdirdilər

Bir neçə gün öncə DİN-in Polis Akademiyasında xüsusi təyinatlı ali təhsil müəssisələri arasında "Parkur" idman növü üzrə yarış keçirilib. Yarışda DİN-in Polis Akademiyasının, Dövlət Gömrük Komitəsinin və Fövqəladə Hallar Nazirliyinin akademiyalarının, DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunun, Müdafiə Nazirliyinin Heydər Əliyev adına Hərbi İnstitutunun komandaları iştirak ediblər. Polis Akademiyası rəisinin döyüş və xidməti hazırlıq üzrə rəis müavini polis polkovniki Əfqan İmanov yarışı açıq elan edərək iştirakçıları uğurlar arzulayıb. Qalib adı uğrunda gərgin keçən mübarizədə əzmkarlıq nümayiş etdirən DİN-in Polis Akademiyasının komandası I yeri tutub. Müdafiə Nazirliyinin Heydər Əliyev adına komandası II, DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunun komandası III yerdə qərarlaşıb.




Tədbirin sonunda qalib komandalara diplom, medal və qiymətli hədiyyələr verilib.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik